## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

UOT 371

***İntiqam Hilal oğlu Cəbrayılov***
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi*
*və tarixi şöbəsinin müdiri*

# GÖRKƏMLİ MAARİFÇİ ZİYALI ƏSƏDULLA BƏY MURADXANOV

***Интигам Хилал оглы Джабраилов***
*доктор педагогических наук, профессор,*
*заведующий отделом теории и истории образования Института*
*Образования Азербайджанской Республики*

# ВЫДАЮЩИЙСЯ ПРОСВЕЩЕННЫЙ ИНТЕЛЛИГЕНТ АСАДУЛЛА БЕК МУРАДХАНОВ

***Intigam Hilal Jabrailov***
*doctor of sciences in pedagogy, professor,*
*head of the department of Theory and history of education of the Institute of Education*
*of the Republic of Azerbaijan*

# PROMINENT ENLIGHTENED INTELLECTUAL ASADULLA BEY MURADKHANOV

**Xülasə.** Məqalədə Əsədulla Muradxanovun maarifçilik fəaliyyətindən bəhs olunur. Araşdırmalar göstərir ki, Ə. Muradxanov (1866-1942) öz dövrünün maarifçi ziyalısı kimi cəmiyyətdə böyük nüfuz sahibi olmuşdur. O, milli demokratik düşüncəli bir şəxsiyyət kimi cəmiyyətin inkişafına nail olmaq üçün xalqın maariflənməsinə xüsusi dəyər vermiş, Şərq ənənələrini qorumaqla yanaşı, Avropa təhsil modelinin tətbiqini də vacib hesab etmişdir. Ə. Muradxanovun Azərbaycan təhsili, mədəni-maarif işi, teatrı, mətbuatı və digər sahələri ilə bağlı fəaliyyət istiqamətləri xalqın milli mədəni irsində mühüm yer tutur. XX yüzilliyin əvvəllərində Rusiyada Birinci Dövlət Dumasına üzv seçilməsi də onun fəaliyyətinin mühüm istiqamətlərindən biridir. O, hər zaman milli dəyərləri qorumağa çalışmış, maarifçilik həyatının başlıca qayəsi olmuşdur.

***Açar sözlər:*** *Əsədulla Muradxanov (1866-1942), maarifçilik fəaliyyəti, maarifçi ziyalı, cəmiyyətin inkişafı, tərbiyə, şəxsiyyət, təhsil, teatr, kitabxana, mətbuat, Rusiya, Birinci Dövlət Duması, milli dəyərlər, milli demokratiya, pedaqoji fikir tarixi.*

**Резюме**. В статье рассматривается просветительская деятельность Асадуллы Мурадханова. Исследования показывают, что А. Мурадханов (1866-1942) имел в обществе высокую репутацию просвещенного интеллектуала своего времени. Особое внимание он уделял просвещению народа для достижения развития общества как национально-демократический мыслитель, и помимо сохранения традиций Востока считал важным применять европейскую модель образования. Деятельность А. Мурадханова в области образования, культуры, театра, печати и других сферах Азербайджана занимает важное место в национальном культурном наследии народа. Его избрание в Первую Государственную Думу России в начале XX века является одним из важных направлений его деятельности. Он всегда старался защитить национальные ценности и был основной просветительской деятельности.

***Ключевые слова:*** *Асадулла Мурадханов (1866-1942), просветительская деятельность, интеллектуальное просвещение, развитие общества, воспитание, личность, образование, театр, библиотека, пресса, Россия, Первая Государственная Дума, национальные ценности, национальная демократия, история педагогической мысли*

**Summary.** The article discusses Asadulla Muradkhanov's enlightenment activities. Studies show that A. Muradkhanov (1866-1942) had a great reputation in the society as an enlightened intellectual of his time. He paid special attention to the enlightenment of the people in order to achieve the development of society as a national democratic thinker, and in addition to preserving the traditions of the East, he considered it important to apply the European model of education. A. Muradkhanov's activities in the field of education, culture, theater, press and other spheres of Azerbaijan occupy an important place in the national cultural heritage of the people. His election to the First State Duma in Russia in the early twentieth century is one of the important directions of his activity. He always tried to protect national values and was the main rock of enlightenment.

***Key words:*** *Asadulla Muradkhanov (1866-1942), enlightenment activity, enlightenment intellectual, development of society, upbringing, personality, education, theater, library, press, Russia, First State Duma, national values, national democracy, history of pedagogical thought.*

Tarixi mənbələr göstərir ki, XIX yüzilliyin ikinci yarısı, XX yüzilliyin əvvəllərindən Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm bir mərhələnin başlayır. Bu dövrdə ilk növbədə diqqəti çəkən xalqın milli şüurunun oyanması, demokratik fikirli insanların cəmiyyətə təsir gücünün artması, milli azadlıq ideyalarının geniş yayılması, maarifçilik hərəkatının, mətbuatın, mədəniyyətin inkişafı və s. kimi bu qəbilli məsələlərdir. Bu dövrdə formalaşan milli düşüncəli şəxsiyyətlərdən biri də Əsədulla bəy Muradxanov (1866- 1942) olmuşdur. Qeyd edək ki, onun mənsub olduğu Muradxanovlar nəslinə Alımirzəlilər də deyilir. Bu da onunla izah olunur ki, Muradxanın varislərindən olan Alımirzə el arasında dərin elmi biliyə sahib olması, müdrikliyi, bacarığı ilə yaxşı tanınmışdı. Nəslin kökü Muradxana bağlı olduğundan əslində bu fikirləri ona da aid etmək doğrudur. Belə bir nəslin nümayəndələrindən olan Əsədulla bəy Muradxanovun həyatı, fəaliyyəti dövrün digər görkəmli şəxsiyyətlərində olduğu kimi bir örnək mübarizə, bir tərbiyə vasitəsi kimi bu gün və gələcəyimiz üçün əhəmiyyət kəsb edir. Ona görə də belə şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənmək, onların cəmiyyətə, xalqa verdikləri töhfələri gənc nəslə çatdırmaq və bu ruhda tərbiyələnmək vacibdir.

Muradxanovlar nəslinin görkəmli nümayəndələrindən biri olan Əsədulla bəy Muradxanov 17 sentyabr 1866-cı ildə Salyanda anadan olmuş və ilk təhsilini də elə burada almış- 4 sinifli rus məktəbində oxumuş, məktəbi müvəffəqiyyətlə bitirərək elmlərin əsaslarına yiyələnmişdir. O, daha sonra Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Araşdırmalar göstərir ki, Ə. Muradxanov Salyanda Qori Müəllimlər Seminariyasına göndərilən ilk gənclərdən olmuşdur. 1886-cı ildə Seminariyada təhsilini başa vuran Ə. Muradxanov Kürdəmirə gəlmiş və burada Köhnəbazar kəndində müəllim kimi fəaliyyət göstərmişdir. Mənbələr göstərir ki, Ə. Muradxanov 7 il Kürdəmirdə pedaqoji fəaliyyət göstərmiş, müəllimlik etmiş (1886-1893) və öz maarifçi ideyalarını nəinki əhatə olunduğu mühitdə, eyni zamanda bütün Rusiya müsəlmanları arasında yaymaqla milli demokratik təfəkkür sahibi, vətənpərvər bir şəxsiyyət kimi tanınmışdır (1,2,4).

Kürdəmirdə 7 il müəllim işlədikdən sonra Ə. Muradxanov Cavad qəzasında "Kəndlilərlə əlaqə şöbəsi"ndə kargüzar, tərcüməçi, daha sonra Salyanda məhkəmə məmuru kimi fəaliyyət göstərmişdir.

İctimai-siyasi həyatda fəallığı ilə seçilən Ə. Muradxanov mətbuat orqanlarında, xüsusilə "Kaspi" qəzetində çıxışları ilə diqqəti cəlb etmiş və bu, onun xalq arasında maarifçi bir ziyalı kimi tanınmasında mühüm rol oynamışdır. O, xalqın imperiya əsarətindən qurtulması üçün onun maarifləndirilməsini, gənclərin milli şüurunun oyanmasını vacib hesab edirdi. Salyanda "Cəmiyyəti-xeyriyyə" adlı təşkilat yaratmaqla gənclər arasında milli dəyərlərimizin təbliğinə xüsusi diqqət yetirir. Bu istiqamətdə işini daha da genişləndirərək kitabxana-qiraətxana açmağa nail olur və eyni zamanda həvəskar teatr cəmiyyətini yaradır. O dövr üçün belə işlərin həyata keçirilməsi həqiqətən, millətin maariflənməsi, milli düçüncənin inkişafı, cəmiyyətdə gedən proseslərin aydın dərk olunması, milli azadlıq mübarizəsinin fəal üzvü kimi yetişmək, formalaşmaq üçün Vətən qarşısında görülən böyük xidmətlər kimi dəyərləndirilir. Biz müstəqillik tariximizdən danışarkən ilk növbədə müstəqilliyə aparan yolları xatırlayır və bu yolda mübarizə aparanları, maarifçi ziyalılarımızı, demokra-

tik fikirli insanların xalqa verdikləri töhfələri qeyd edir, onların tarixi əhəmiyyətini izah edirik. Yəni qazanılan müstəqillik həm də tarixən aparılan milli mücadilənin, Azərbaycanın vətənpərvər oğul və qızlarının fədakar mübarizəsinin nəticəsi kimi başa düşülür. A. Bakıxanov, M.F. Axundzadə, H. Zərdabi kimi və digər görkəmli maarifçi ziyalılarımızın, milli təfəkkür sahiblərinin xidmətləri mütləq şəkildə qeyd olunur, onların cəmiyyətin inkişafında oynadıqları rolu dəyərləndiririk. Bu baxımdan Ə. Muradxanov da həmin sırada öz fəaliyyəti ilə ləyaqətli yer tutur, maarifçilik hərəkatının görkəmli nümayəndəsi kimi yad edilir.

Mənbələr göstərir ki, Ə.Muradxanovun atası Mirzə Abdulalı bəy dövlət işində çalışmış və o da vətənpərvər bir ziyalı kimi tanınmışdır. Onun A. Bakıxanovla(1794-1847), M.F. Axundzadə (1812-1878) ilə yaxın əlaqələri olmuşdur. Mirzə Abdulalı bəy A. Bakıxanovu işıqlı, maarifçi bir şəxsiyyət kimi tanıdığını qeyd etmiş, bu barədə öz xatirələrini oğlu- Ə.Muradxanova danışmışdır. Belə bir ailədə böyüyən Əsədulla bəy də öz xalqının gələcək taleyini həmişə düşünmüş, milli düşüncələrini həyata keçirmək, gəncləri vətənpərvər ruhda tərbiyələndirmək üçün bütün imkanlarından istifadə etmişdir (2, s. 4).

Tarixi mənbələr göstərir ki, Salyanda kitabxana-qiraətxana açıldıqdan sonra buraya maraq gündən-günə artmağa başlamışdı. Bu kitabxana-qiraətxanaya el arasında "məktəb" deyilirdi. Xüsusilə gənclər bu kitabxana-qiraətxanaya böyük həvəs göstərir, mənəvi tələbatlarını ödəmək, dünyagörüşlərini genişləndirmək, cəmiyyət hadisələrini öyrənmək üçün buraya gəlir, burada müzakirələr keçirirdilər. Bu proses əslində onların milli şüurunun yaranması və inkişafına təsir göstərir, vətənpərvər ruhda formalaşmalarında mühüm rol oynayırdı.

Əsədulla bəy Muradxanovun yaratdığı həvəskar teatr cəmiyyəti də gəncləri öz ətrafına toplamış, onlarda milli mənəvi keyfiyyətlərin formalaşması və inkişafında mühüm rol oynamışdır. XX yüzilliyin əvvəllərinə aid olan mənbələrdə göstərilir ki, Salyanda 1905-ci ildə Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", 1906-cı ildə isə " Pəhləvanani-zəmanə" əsərlərinin tamaşaya qoyulması məhz Əsədulla bəy Muradxanovun adı ilə bağlıdır. Ə.Muradxanov həmin tamaşaların rejissoru olmuş və onun rəhbərliyi altında bu əsərlər həvəskar teatr cəmiyyətinin üzvlərinin iştirakı ilə dəfələrlə tamaşaya qoyulmuşdur. Əlbəttə, qeyd etdiyimiz məsələlərə adi, sıradan bir fəaliyyət kimi yanaşmaq doğru olmazdı. XX yüzilliyin əvvəllərində, mürəkkəb ictimai-siyasi şəraitdə xalqın maarifləndirilməsi, gənclərdə milli özünüdərk hissinin formalaşdırlması məqsədilə atılan addımlar, həyata keçirilən əməli tədbirlər böyük vətənpərvərlik nümunəsi, vətəndaşlıq keyfiyyəti kimi dəyərləndirilə bilər. Kitabxana-qiraətxanaya gələn, burada müzakirələrdə iştirak edən, yaxud teatr tamaşalarına maraq göstərənlərin sayı artdıqca, aydın məsələdir ki, cəmiyyətin milli demokratiya uğrunda mübarizəsi də daha möhkəm əlaqələr, münasibətlər zəminində inkişaf etməyə başlayır, milli azadlığın təntənəsi yolunda milli həmrəylik hisslərinin güclənməsi üçün əlverişli imkanlar yaranır. Bu baxımdan o zaman milli demokratik qüvvələrin, həmçinin Ə. Muradxanovun gördüyü işlər Azərbaycanın milli mübarizə tarixində şərəfli yer tutur.

Əsədulla bəy Muradxanovun milli mübarizəsi çoxistiqamətli olmuşdur. O, 1906-cı ildə Bakı quberniyasının Cavad qəzasından Rusiya imperiyasının parlamentinə- Birinci Dövlət Dumasına üzv seçilmiş və deputat kimi fəaliyyətində milli maraqlarımızın, bütün Rusiya müsəlmanlarının maraqlarının müdafiəçisi kimi diqqəti cəlb etmişdir (1, 3, 5). Doğrudur, Azərbaycanda seçkilər bir qədər gec (may ayında) keçirildiyinə görə azərbaycanlı deputatlar parlamentin işinə də bir qədər gec qoşula bilmişdilər. Duma özü isə 27 apreldə fəaliyyətə başlamışdı. Lakin bu, deputatlarımızın milli mübarizəsinə mane ola bilməmişdi. Dumanın digər azərbaycanlı deputatları olan Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev, Məmmədtağı Əliyev, Ataxan İrəvanski ilə birlikdə Əsədulla bəy Muradxanov çar hökumətinin Rusiyada yaşayan xalqlar arasında milli ayrı-seçkilik siyasətinə qarşı çıxmış, bütün Rusiya müsəlmanlarının hüquqları uğrunda mübarizə aparmışdır. Qeyd edək ki, Dumada Rusiyanın müxtəlif bölgələrini təmsil edən 36 deputatdan ibarət müsəlman fraksiyası vardı. Azərbaycanlı deputatlar bu fraksiyada birləşmişdirlər.

Rusiya çarı II Nikolay 1906-cı ilin iyulunda Birinci Dövlət Dumasını buraxdıqdan sonra (1906-ci il, iyul) Ə. Muradxanov Sankt-Peterburq şəhərindən geriyə- doğulduğu doğma yurda- Salyana qayıtmış və yenə də mədəni-maarifçilik fəaliyyəti ilə məşğul olmuş, mətbuat səhifələrində çıxışlar etmişdir. O zaman nəşr olunan " Brohauz və Yefron ensiklopedik lüğət"ində Ə. Muradxanovun bəzi məqalələri çap olunmuşdur.

Ə. Muradxanov 1926-cı ildə Bakıya köçmüş və burada Mülki Məhkəmənin sədri vəzifəsində işləməyə başlamışdır. 3 il Məhkəmə sədri işləmiş və həmin dövrdə də haqq-ədalət mövqeyini qorumuşdur.

Ə. Muradxanov 1929-cu ildə təqaüdə çıxmış və doğulduğu Salyan rayonuna qayıtmışdır. Onun həyatının sonrakı mərhələsi də məktəb həyatı ilə, mədəni-maarifçiliklə bağlı olmuşdur.

Əsədulla bəy Muradxanov 28 yanvar 1942-ci ildə vəfat etmişdir.

Ə. Muradxanov maarifçi, pedaqoq, publisist və ictimai-siyasi xadim olaraq dövrünün görkəmli ziyalısı kimi tanınmışdı. Onun həyatı, fəaliyyəti milli-mənəvi irs kimi bu günümüz və gələcəyimiz üçün çox əhəmiyyətlidir. O, doğma Azərbaycan dili ilə yanaşı, Şərq dillərini, bundan əlavə rus dilini mükəmməl bilirdi. Bu da ona müxtəlif şəraitdə, müxtəlif dil mühitində öz fikirlərini sərbəst ifadə etməyə, çarizmə, fanatizmə qarşı mübarizədə bacarıqla faydalanmağa əlverişli imkanlar yaradırdı. Ə. Muradxanov bilik qazanmağın, dəyərlər əsasında tərbiyənin vacibliyini xüsusilə qeyd edirdi. Çünki məhz bu keyfiyyətlər insanı milli ruha kökləyir, onu vətəndaş-şəxsiyyət səviyyəsinə yüksəldir. Elə onun təhsilə verdiyi dəyər nümunəsidir ki, Muradxanovlar nəsli həmişə Azərbaycan təhsilinin, mədəniyyətinin inkişafına töhfələr vermiş, xalqımızın tərəqqisi naminə bilik və bacarıqlarını əsirgəməmiş, vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir.

Elmi araşdırmalar sübut edir ki, şəxsiyyətin formalaşmasında tarixi ənənələr nə qədər mühüm rol oynayırsa, eyni zamanda müasirlik prinsipi, tərbiyə prosesində yeni yanaşmaların nəzərə alınması da vacibdir. Bu baxımdan Ə. Muradxanov da şəxsiyyətin formalaşması prosesinə bu aspektdən yanaşmış, insan tərbiyəsində müasirliyi də diqqətdən qaçırmamışdır. Hələ o dövrdə, qızların, qadınların təhsilə cəlb edilməsində müəyyən qadağaların olduğu zamanda xurafatdan, fanatizmdən çox uzaq olan Ə. Muradxanov qızlara da dünyəvi təhsil verilməsinin, onların geniş dünyagörüşə malik şəxsiyyət kimi formalaşdırılmasının qızğın tərəfdarlarından olmuşdur. Mənbələrdə, o zaman Salyan şəhərində gimnaziyaya çadrasız gedən ilk azərbaycanlı qızlar arasında Əsədulla bəy Muradxanovun qardaşı nəvəsi Lumu xanımın da adı çəkilmişdir. Ə.Muradxanov ailədə və məktəbdə həmişə demokratik ruhlu gənclərin yetişməsinə, onların geniş dünyagörüşə malik şəxsiyyətlər kimi formalaşmasına xüsusi əhəmiyyət vermişdir. Onun bu amallar uğrunda mübarizəsi təbii ki, özündə olan mənəvi keyfiyyətlərdən irəli gəlmişdir. İnsanı həmişə daxilən azad görmək istəyən Əsədulla bəyin ruhundakı demokratiklik, millilik onu milli dəyərlərimizi qoruyan, təbliğ edən , həm də pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi kimi tanıtmışdır.

Ə. Muradxanov Salyanda el arasında xeyirxahlığı ilə tanınan, elmə, mədəniyyətə böyük dəyər verən Hacı Babaşın qızı- hamının Qönçəbacı deyə müraciət etdiyi Dürsədəf xanımla ailə qurmuş və 8 övladı ( 2 oğlu, 6 qızı) olmuşdur: oğlanları: Əli bəy və Mərdan, qızları: Böyükxanım, Dostuxanım, Nabat, Ayxanım, Ağanənə və Nurcahan.

Böyük oğlu Əli bəy məşhur göz həkimi tanınmışdı. Digər oğlu isə professor, əməkdar elm xadimi Mərdan Muradxanov ( 1909-1979) Azərbaycanın görkəmli pedaqoq-alimlərindən biri kimi pedaqogika elmində şərəfli yer tutur. Muradxanovlar nəslindən olan Mailə xanım Muradxanlı (1940-2010) (Mərdan Muradxanovun əmisi oğlu Balabəy Muradxanovun qızı) istedadlı jurnalist, tərcüməçi, publisist, müəllim, dramaturq kimi mədəniyyət tariximizin görkəmli nümayəndələri sırasındadır.

Ümumiyyətlə, Muradxanovlar nəslinin nümayəndələri hər zaman Azərbaycan elminə, mədəniyyətinə verdiyi töhfələrlə diqqəti cəlb etmişlər. Bu da təbii ki, Əsədulla bəy Muradxanovun qoyub getdiyi mənəvi irsdən, tərbiyə məktəbindən qaynaqlanır. Bu böyük şəxsiyyətin, Azərbaycan xalqının dəyərli övladı, maarifçi, pedaqoq, publisist, ictimai-siyasi xadim Əsədulla bəy Muradxanovun xatirəsi hər zaman yad edilir. Onun qoyub getdiyi irs həmişə öyrəniləcək, mənəvi tərbiyə vasitəsi olacaqdır.

**Problemin aktuallığı.** Vətən tarixinin öyrənilməsində maarifçilk, eyni zamanda pedaqoji fikir tarixinə aid mənbələrin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan görkəmli maarifçi ziyalı Əsədulla bəy Muradxanovun həyat və fəaliyyəti maraq doğurur. O, ömrü boyu xalqın maariflənməsi üçün çalışmış, vətəndaşlıq mövqeyindən çıxış etmiş, milli demokratik fikirli şəxsiyyətin formalaşması yollarını göstərmişdir. Belə maarifçi ziyalıların fəaliyyət istiqamətlərinin dərindən öyrənilməsi vacibdir.

**Problemin elmi yeniliyi.** Məqalədə Ə. Muradxanovun maarifçi ziyalı kimi cəmiyyətin inkişafına verdiyi töhfələr, onun fəaliyyət istiqamətləri ardıcıl şəkildə elmi-pedaqoji baxımdan əsaslandırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə əksini tapmış ideyalardan pedaqogika tarixi dərsliyi, dərs vəsaiti və digər tədris resurslarının hazırlanmasında, ali və orta ixtisas məktəblərində pedaqogika fənni üzrə mühazirə və seminarlarda istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan tarixi. 7 cilddə. 5-ci cild (1900-1920-ci illər). -: Elm, -2008. -696 s

2. Fərəcov, S. Xalqın maarifçi oğlu: Əsədulla bəy Muradxanov. https://medeniyyet.az/page/news/-19354/Xalqin-maarifci-oglu:-Esedulla-bey-Muradxanov.html?lang=ru

3. 27 aprel 1906–Rusiyanın I Dövlət Duması işə başlayıb. https://ochagsamara.wordpress.com/2016/-04/27/

4. Seyidzadə, D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar / D.B. Seyidzadə. - Bakı, -2004

5.Государственная дума первого призыва (1906). https://ru.wikisource.org/wiki/%D0%A4%D0-%B0%D0%B9%D0%BB:%D0%93%D0%BE%D1%81%D1%83%D0%B4%D0%B0%D1%80%D1%81%D1%82%D0%B2%D0%B5%D0%BD%D0%BD%D0%B0%D1%8F_%D0%B4%D1%83%D0%BC%D0%B0_%D0%BF%D0%B5%D1%80%D0%B2%D0%BE%D0%B3%D0%BE_%D0%BF%D1%80%D0%B8%D0%B7%D1%8B%D0%B2%D0%B0_(1906).pdf

**E-mail:** intiqamcebrayilov@mail.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **A.N.Abbasov**
*Ped.ü.fəls.dok.* **R.R.Məmmədzadə**

**Redaksiyaya daxil olub:** 10.06.2021